GÜNÜN SİYASİ NƏBZİ







# Azərbaycan tarix yazan Liderlə irəliləyir: Vaşinqtondan sülh səsi, dövlətimizin qələbəsi



*Dünyada baş verən bütün proseslər məhz siyasətin təsiri ilə istiqamət tapır. Çünki siyasət cəmiyyətin idarə olunması, ictimai münasibətlərin təşkili və güc strukturlarının formalaşdırılması prosesini, həmçinin dövlətin və digər sosial institutların fəaliyyətini tənzimləyir. Sadə dillə desək, milli maraqlar uğrunda rəqabətin aparıldığı, ideyaların toqquşduğu, bəşəriyyətə təsir edən kollektiv qərarların verildiyi kompleks münasibətlər sistemidir. Bu sistem tarixi proseslərdə, sosial transformasiyalarda, iqtisadi və mədəni dəyişikliklərdə xüsusi rol oynayır. Siyasət vasitəsilə cəmiyyət öz strukturunu yenidən qurur, resursları bölüşdürür, konfliktləri həll edir və ümumi rifahın təmin olunması üçün strategiyalar formalaşdırır. Siyasətdə haqq səsini ucaltmaq, ədalət naminə qələbə qazanmaq istəyən tərəf qarşı tərəfi birbaşa yox, diplomatik, iqtisadi, informasiya və psixoloji alətlərlə sıxışdırmaq, manevr imkanlarını daraltmaq yolu ilə neytrallaşdırmağa səy göstərir. Demək, uzaqgörənlik burada əsas şərtdir. Məhz bu prizmadan yanaşdıqda, Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir.*

Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə edən uzaqgörən lider kimi İlham Əliyev artıq uzun illərdir ki, regional və beynəlxalq siyasətdə öz nüfuzlu mövqeyini möhkəmləndirib. Onun strateji düşüncəsi və qərar qəbuletmə bacarığı ölkəmizi regionun aparıcı aktoru, həm də qlobal siyasi arenada etibarlı tərəfdaş kimi tanıdıb. Vaşinqton platforması Azərbaycan və Ermənistan arasında illərdir davam edən münaqişəyə son qoymaq üçün mühüm diplomatik mühit kimi seçilib. Prezident İlham Əliyev bu səfər vasitəsilə Azərbaycanın ədalətli və prinsipial mövqeyini bir daha qlobal siyasi məkanda təqdim edir və tərəflər arasında sülh müqaviləsinin imzalanması üçün zəmin yaradılmasında təşəbbüs göstərir. Dövlət başçısının Vaşinqtonda həyata keçirdiyi danışıqlar və imzalanacaq sənədlər regional sülh və təhlükəsizlik mühitinin bərpasına yönələn strateji addımlar kimi yaddaşlardan silinməyəcək.

Vaşinqtonda Azərbaycan və Ermənistan liderləri arasında sülh prosesinin hüquqi və siyasi əsaslarını müəyyən edən Birgə Bəyannamənin imzalanması bütün Cənubi Qafqazın geosiyasi arxitekturasına birbaşa təsir göstərəcək. Onun hər maddəsi həm diplomatik mesaj, həm də real siyasi iradə nümunəsi kimi oxunacaq. Birinci mühüm məqam uzun illər davam edən keçmiş Qarabağ münaqişəsinin həlli üçün nəzərdə tutulmuş, lakin fəaliyyəti əksər hallarda səmərəsiz və nəticəsiz olan ATƏT-in Minsk qrupu ilə bağlıdır. Azərbaycan və Ermənistanın ATƏT-in baş katibinə birgə müraciət edərək qurumun ləğvini rəsmən tələb etməsi bölgədə sülh prosesinə yeni yanaşma və format gətirilməsinin elanıdır. Minsk qrupu illərlə "status-kvo"nu qoruyan, bəzən isə tərəflər arasında etimadsızlığı dərinləşdirən passiv vasitəçi kimi çıxış edib. İndi daha çevik, konkret nəticələrə fokuslanan və regiondakı reallıqları nəzərə alan beynəlxalq mexanizmlərin tətbiqi planlaşdırılır. Bu, həm diplomatik prosesin sürətlənməsinə, həm də sülh gündəliyinin formal bəyanatlardan real icra mərhələsinə keçməsinə şərait yaradacaq. İkinci vacib istiqamət Ermənistan konstitusiyasına dəyişikliklər etməklə Azərbaycana qarşı bütün ərazi iddialarının hüquqi müstəvidə tamamilə aradan qaldırılmasıdır. Konstitusiyadakı bu müddəaların ləğvi, qarşı tərəfin suverenliyini və ərazi bütövlüyünü rəsmən tanımaq deməkdir ki, bu da sülhün ən möhkəm təminatlarından biridir. Bu dəyişiklik həmçinin, gələcəkdə yaranacaq hər hansı gərginliyin beynəlxalq hüquq baxımından qarşısını alacaq mexanizm rolunu oynayacaq. Üçüncü mühüm element Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz quru bağlantısının təmin olunması məsələsidir. Bu məzuya xüsusi yer ayrılması, Zəngəzur dəhlizi ideyasının artıq siyasi və hüquqi sənədlərdə öz təsdiqini tapması deməkdir. Zəngəzur dəhlizi regionun geoiqtisadi xəritəsini dəyişdirir. Dəhliz vasitəsilə Türkiyədən Mərkəzi Asiyaya qədər uzanan vahid nəqliyyat və ticarət şəbəkəsi formalaşa bilər ki, bu da Cənubi Qafqazın Avrasiya məkanındakı rolunu gücləndirəcək.

ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi və Azərbaycan üçün ədalətsiz hesab olunan "907-ci düzəliş"in dayandırılması da Vaşinqton səfərinin vacib siyasi-texniki nəticələrindəndir. Düzəlişin əsas mahiyyəti Azərbaycanın birbaşa ABŞ hökumətindən hərbi və iqtisadi yardım almaq imkanlarının məhdudlaşdırılması idi ki, bu da ölkəmizin regional təhlükəsizlik və inkişaf strategiyalarına mənfi təsir göstərirdi. "907-ci düzəliş" Azərbaycanın suveren maraqlarına zidd olan və onun beynəlxalq səhnədə strateji əməkdaşlıq imkanlarını əngəlləyən qanunvericilik aktı kimi qiymətləndirilirdi. Vaşinqton səfəri çərçivəsində bu düzəlişin dayandırılması Azərbaycanın beynəlxalq siyasətdə artan nüfuzunun və regionda özünəməxsus güc mərkəzi kimi mövqeyinin rəsmi tanınmasıdır. Bu addım ABŞ-ın Azərbaycanla münasibətlərdə daha geniş, daha səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq modelinə keçid niyyətinin göstəricisidir. Düzəlişin ləğvi eyni zamanda Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirilməsi üçün ABŞ tərəfindən göstərilən siyasi dəstəyin və güvənin bir əlaməti kimi də qəbul edilir. Bu da regionda balanslı güc münasibətlərinin qurulmasına, həmçinin Azərbaycanın strateji təşəbbüslərinin beynəlxalq səviyyədə dəstəklənməsinə şərait yaradır.

ABŞ Prezidenti Donald Trampın "Truth" sosial şəbəkəsində açıqlaması Cənubi Qafqazda uzun müddətdir davam edən münaqişənin sülh yolu ilə həllinə yönələn səylərin reallaşdığından xəbər verir. Tramp Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanı Ağ Evdə keçiriləcək "Tarixi Sülh Sammiti"ndə qəbul etməyə hazırlaşdığını açıqlayaraq bu görüşün region üçün dönüş nöqtəsi olacağını vurğulayıb. Donald Trampın fikrincə, iki xalq arasında on illərdir davam edən müharibə nəticəsində minlərlə insan həyatını itirib və bu faciənin aradan qaldırılması üçün artıq yeni və effektiv yanaşma tələb olunur. ABŞ-ın bu prosesdə rolu regionda dayanıqlı sülhün təmin olunması ilə yanaşı, iqtisadi inteqrasiyanın gücləndirilməsində həlledici amil kimi dəyərləndirilir. Donald Trampın Azərbaycanın lideri cənab İlham Əliyevə ünvanladığı xoş sözlər, əslində, siyasi iradəyə verilən yüksək qiymətin göstəricisi kimi dəyərləndirilməlidir. Trampın bəyanatında Prezident İlham Əliyevin sülh təşəbbüslərində oynadığı aparıcı rol xüsusi qeyd olunur və bu, Azərbaycanın regional proseslərdə qərarverici aktor kimi qəbul edilməsinin bariz nümunəsidir. Ölkə başçısının qətiyyətli siyasi kursu, postmünaqişə dövründə sülh çağırışları və prinsipial mövqeyi, nəinki bölgədə yeni geosiyasi reallıqlar yaradıb, həm də beynəlxalq miqyasda Azərbaycanın sülh tərəfdaşı kimi mövqeyini möhkəmləndirib. Trampın çıxışında ifadə olunan "cəsarətli lider" vurğusu, məhz bu müstəvidə verilən obyektiv qiymədir. Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşlər fonunda ABŞ dövlət katibi Marko Rubionun verdiyi açıqlama bu prosesə beynəlxalq siyasi dəstəyin və strateji yanaşmanın nümunəsidir. Jurnalistlərin suallarını cavablandırarkən Marko Rubio bəyan edib ki, Azərbaycan və Ermənistan arasında imzalanacaq razılaşma əslində sülh sazişi üçün ilkin və mühüm başlanğıc olacaq. O deyib ki, ABŞ Prezidenti Donald Tramp sülhə sadiqdir və sülhsevər lider olmaqda qərarlıdır: "Biz Hindistan və Pakistan müharibəyə başladıqda birbaşa müdaxilə etdik və dövlət başçısı sülhü təmin edə bildi. Bu yaxınlarda Kamboca və Tailandda bənzər hadisə yaşandı. Biz ümid edirik ki, Azərbaycan və Ermənistanla bağlı da buna nail olacağıq. Bu həftənin cümə günü razılaşma imzalamaq və onu sülh sazişinin başlanğıcı etmək üçün burada olacağıq". Marko Rubionun açıqlamaları göstərir ki, ABŞ bu dəfə həm də prosesin nəticəsinə məsuliyyət daşıyan aparıcı geosiyasi aktor rolunu öz üzərinə götürməkdədir. Bu isə Cənubi Qafqazda beynəlxalq maraqlar sistemində əhəmiyyətli bir gündəm olduğunu sübut edir. Vaşinqton administrasiyası bu yolla həm Rusiya və İran kimi regionda təsir dairəsi olan güclərə qarşı balans yaratmağa, həm də Avropa və Asiyanın enerji və təhlükəsizlik axınlarını dayanıqlı əsaslarla formalaşdırmağa çalışır. Bu kontekstdə Azərbaycan və Ermənistan arasında razılaşma ABŞ-ın "regional sabitlik və qlobal əməkdaşlıq" siyasətinin mühüm tərkib hissəsinə çevrilir. Həmçinin avqustun 7-də Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri çərçivəsində imzalanan sənədlər də ölkəmizin strateji əhəmiyyətinin Qərb, xüsusilə də ABŞ tərəfindən yeni kontekstdə dəyərləndirildiyini göstərir. Prezident İlham Əliyev ilə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff arasında keçirilən görüş iki ölkə arasında enerji sahəsində tərəfdaşlığın dərinləşməsi istiqamətində mühüm addımdır. Əldə olunan əsas razılaşmalardan biri də SOCAR ilə ABŞ-ın nəhəng enerji şirkəti "ExxonMobil" arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanmasıdır. Sənədi Azərbaycan tərəfindən iqtisadiyyat naziri Mikayıl Cabbarov, ABŞ tərəfindən isə "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardill imzalayıb. Bu memorandum qarşılıqlı investisiya, texnologiya mübadiləsi və enerji təhlükəsizliyinin təmin olunması üçün açılan yeni platformadır. Ölkəmiz Xəzər hövzəsində etibarlı enerji tərəfdaşı və regionun sabitlik dayaqlarından biri kimi tanınır. "ExxonMobil" kimi transmilli enerji nəhəngi ilə tərəfdaşlıq, Azərbaycanın enerji bazarlarında texnoloji tərəqqi, sərmayə axını və dayanıqlı enerji istehsalı baxımından imkanlarını daha da artıracaq. ABŞ-ın Cənubi Qafqazdakı enerji maraqları konkretləşdirəcək. Qlobal enerji təhlükəsizliyində yeni çağırışlar fonunda Azərbaycanla əməkdaşlıq Vaşinqtonun alternativ enerji təchizatçılarının dəstəklənməsi strategiyasına tam uyğundur. Eyni zamanda, hadisələr XXI əsrin çoxqütblü və sürətlə dəyişən qlobal düzənində Azərbaycanın yeni statusunun - qərarverici güc mərkəzi kimi qəbul olunmasının simvolik təzahürüdür. Bu səfər postsovet məkanında formalaşmaqda olan yeni geosiyasi nizamın təməlidir. Tarixə qızıl hərflərlə yazılacaq ki, Azərbaycan torpaqlarını azad etdi, həm də regional siyasi müstəvidə sabitliyin mümkünlüyünü sübuta yetirdi. Artıq yeni epoxa - sülh, inkişaf və əməkdaşlıq əsri başlayır. Və bu əsrin əsas memarlarından biri, şübhəsiz ki, Prezident İlham Əliyev və onun rəhbərlik etdiyi müasir Azərbaycandır.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**